

*Məhəmməd Şabanoğlu Zaqatalada doğulub, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Peşəkar publisistdir, uzun illər rayon qəzetində maarif və mədəniyyət şöbəsinə, yaradıcı gənclərin toplaşdığı "Qönçə" Ədəbi Birliyinə rəhbərlik edib. Azərbaycan, rus, türk dillərindən əlavə ərəb, fars dillərini də mükəmməl bildiyindən qədim tarixi-mədəni abidələr üzərində araşdırma işləri aparıb, sanballı məqalələr qələmə alıb. Əsərləri respublika mətbuatında dərc olunur, bir neçə kitabın müəllifidir.*

*Jurnalımızın daimi oxucularından olan Məhəmməd müəllim həm də istedadlı şairdir.*

## AĞLAMA, ŞƏHİD ANASI

Ağlama şəhid anası,
Sənə baxıb el ağlayır.
Yuvasında susdu bülbül,
Budağında gül ağlayır.

Dağ başında əriyər buz,
Göy üzündə sönər ulduz.
Təzə gəlin, nişanlı qız,
Tökür gözdən sel, ağlayır.

Keçər tarix, dönər zaman ,
Unudulmaz o qəhrəman!
Bu xəbəri bildiyi an,
Dəniz daşdı, göl ağlayır.

O, şanlı bir qəhrəmandır,
Müqəddəsdir sözü, andı.
Qəlbimdə bir ocaq yandı,
Odu sönüb, kül ağlayır.

Dərdə, qəmə salma meyil,
Nə kədərlən, nə də əyil.
O, tək sənin oğlun deyil,
Ondan ötrü el ağlayır!

## TƏK ANAMIZ VƏTƏNDİR

Qəlbimdə yüz sevgi, həsrət yaşayır,
Ürəyimin aşinası vətəndir.
Dünya evi şəffaf sular kimidir,
Bu suların tək sonası vətəndir.

Hara getsək, harda qalsaq fərqi yox,
İnsanları nəfsi təmiz, gözü tox.
Dərdim, qəmim hər nə qədər olsa çox,
Ah eləyib odlanası vətəndir.

İradəmlə qətiyyətim var isə,
Düz ilqarım, saf niyyətim var isə.
Əgər eşqim, məhəbbətim var isə,
Bu sevdanın hər mənası vətəndir.

Beşiyimiz, məzarımız burdadır,
Yurddan gözəl bir yer varmı, hardadır?!
Eşitsə ki, bir övladı dardadır,
Arxasında dayanası vətəndir.

O gözəldi, gül-çiçəyi solsa da,
Dağlarını duman, çiskin alsa da.
Hərəmizin bir anası olsa da,
Hamımızın tək anası vətəndir!

## AZƏRBAYCAN ELİYƏM MƏN

Babaların qılıncıdır belimdə,
Nizaminin qələmi var əlimdə,
Hikmət dolu kəlamları dilimdə,
Yerlər qədər, göylər qədər uluyam mən,
Azərbaycan eliyəm mən!

Bu dünyaya yanmaq üçün gələnəm,
Son tikəmi dostum ilə bölənəm.
Kərəm kimi yar yolunda ölənəm,
Doğru sözün, düz ilqarın yoluyam mən,
Azərbaycan eliyəm mən!

Qədimlərdə əfsanəli, nağıllı,
Tarixlərdə min qəhrəman oğullu.
Yeri gəlsə Dədə Qorqud ağıllı,
Yeri gəlsə Koroğlutək dəliyəm mən,
Azərbaycan eliyəm mən!

## ZƏFƏR ÇALIB DÖNƏCƏYƏM

(Əsgər gedən
övladlarımızın dilindən)

Mən əsgər gedirəm, ana!
Zəfər çalıb dönəcəyəm.
Düşmənlərin ürəyinə,
Qorxu salıb dönəcəyəm!

Sən həmişə gülə-gülə,
Ordumuza uğur dilə.
Düşmən daşdan olsa belə,
Qırıb, bölüb gələcəyəm!

Qoy dayansın qorxaq yağı,
Sinəsinə çəkim dağı.
Cənnət misal Qarabağı,
Ondan alıb dönəcəyəm!

Bir arzum var bu dünyada:
Layiq olum mən bu ada.
Bir qəhrəman, qazi, ya da
Şəhid olub dönəcəyəm!

## PAYIZ YARPAQLARI

Elə bil xəstədir, solub bənizi,
Qış gələr bağlardan silinər izi.
Yayın istisindən qoruyub bizi,
Ayaq altda xışıldayan yarpaqlar.

Cərgəsindən yavaş-yavaş sökülür,
Tək-tək düşür, dəstə-dəstə tökülür.
Həsrətdənmi bir-birinə bükülür,
Qızıl rəngli işıldayan yarpaqlar.

Sanki göydənələnirlər ələklə,
Qucaqlaşıb oynayırlar küləklə.
Ayrılıq dəmində sınıq ürəklə,
Nəsə deyir pıçıldayan yarpaqlar...